# AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNDƏ VƏTƏNDAŞLIQ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASININ İMKAN VƏ YOLLARI

**Vüsalə Səfərova,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: səfərova_v@mail.ru

**Rəyçilər:** *ped.ü. elm.dok., prof.* M.M. Əmirov,
*ped.ü. fəls.dok.* D. Musayev

***Açar sözlər:*** *Azərbaycan tarixi, tələbələrdə vətəndaşlıq, vətəndaşlıq tərbiyəsi, vətəndaşlığın mahiyyəti, mənəvi tərbiyə, nümunəvi vətəndaşlıq, mühazirələr və seminarlar*
***Ключевые слова:*** *история Азербайджана, гражданство у студентов, гражданское воспитание, суть гражданства, моральное воспитание, примерное гражданство, лекции и семинары*
***Keywords:*** *history of Azerbaijan, citizenship of students, civic education, essence of citizenship, moral upbringing, approximate citizenship, lectures and seminars*

Cəmiyyət üzvləri arasında nümunəvi vətəndaşlıq keyfiyyətini tətbiq etmək dövlət və hüquq tarixində həmişə mövcud olub. Tanınmış yunan filosofu Aristotel qədim dövr vətəndaşının hüquq və vəzifələri haqqında yazırdı: "Yaxşı insan tabe olmağı və hakim olmağı bacarmalıdır və vətəndaş fəziləti azad insanlar üzərində hakim olmaq və hakimiyyətdə tabe olmağı bacarmalıdır. Əgər təmkin və ədalətin növləri azad məmurda və azad xidmətçidə fərqlidirsə, onda bu yaxşı insan fəziləti, məsələn, ədalətsizliklə eyni deyildir: kişi və qadının təmkin və cəsarəti fərqləndiyi kimi, insan… bir neçə növə ayrılır: əgər kişinin igidliyi qadının igidliyi və cəsurluğu səviyyəsində olarsa, o, qorxaq görünərdi, qadın isə xeyirxah kişi kimi ciddi olarsa, zəvzək görünərdi: təsərrüfatı idarə etmək bacarığı da kişi və qadında eyni deyildir: kişininki qazanmaq, qadınınkı yığmaqdır " (1, 99-100).

Böyük mütəfəkkir əslində həm vətəndaşın, həm də kişi və qadının cəmiyyət həyatındakı funksiyaların yetərincə dəyərləndirməlidir. Bu baxımdan Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikası Qanununda deyilir: "Azərbaycan Respublikasının Konstitusiyasının 52-ci maddəsinə görə, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikası ərazisində və ya Azərbaycan Respublikası vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikası vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır." (2, 3)

Deməli, qanunun məzmununda vətəndaşla dövlət arasında bağlılığın istiqamətləri aydın təsvir edilib. Həmin bağlılıqları aşağıda konkretləşdiririk:

1-ci şəxsin Azərbaycan dövlətinə mənsubluğu olmalıdır;

2-ci şəxsin hüquqi və siyasi bağlılığı olmalıdır;

3-cü hər iki tərəfin hüquq və siyasi bağlılığı olmalıdır;

Həmin qanunun ikinci maddəsində vətəndaşlıq hüququnun təminatı ilə bağlı məsələlərə aydınlıq gətirərək deyilir: Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin I hissəsinə görə Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasının vətəndaşlığından məhrum edilə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin II hissəsinə görə Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula bilməz və ya xarici dövlətə verilə bilməz.

Azərbaycan Respublikası Konstitusiya-sının 53-cü maddəsinin ikinci hissəsinə görə, Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarının hüquqi mühafizəsinə təminat verir.

"Vətəndaşlıq hüququnun təminatı üçün Azərbaycan dövləti öz orqanlarının və vəzifəli

şəxslərin simasında Azərbaycan Respublikası vətəndaşları qarşısında məsuliyyət daşıyır" (2, 3-4).

Dövlətimiz cəmiyyətdə öz vətəndaşının azad və bərabər hüquqlu yaşamasını təmin edir. Bu baxımdan qanunun 3-cü maddəsində deyilir: "Azərbaycan Respublikasının vətəndaşlığı onu əldə edilməsi əsalarından asılı olmayaraq hamı üçün bərabərdir."

Azərbaycan Respublikası vətəndaşlarını hüquqları, azadlıqları və vəzifələri onların mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən, həmin yerdə yaşadığı müddətdən və başqa hallardan asılı olmayaraq bərabərdir (2, 1.4).

Vətəndaşlığın müxtəlif funksiya və istiqamətləri, onun hüquqi bazası, nümunəvi vətəndaş olmağın həm dövlət üçün, həm də vətəndaş üçün müsbət cəhətlərinin tələbələrə aşılanması vacibliyini əsaslandırmaqla həmin vəzifənin yüksək siyasi əhəmiyyət kəsb etdiyini də müəyyənləşdirdik.

Deməli vətəndaşlıqla bağlı çoxsaylı hüquqi sənədlərin məzmunu tanışlıqdan aydın olur ki, daimi olaraq dövlətin nəzarətində olan vətəndaşların dövlətə, xalqa, doğma Vətənə bağlılığı problem xüsusi diqqət tələb edən son dərəcə aktual bir problemdir. Həmin problemin həlli ali təhsilin bakalavr pilləsində Azərbaycan tarixinin tədrisindən keçir. Belə ki, ali məktəblər üçün nəzərdə tutulmuş Azərbaycan tarixi (4) dərsliyində tələbələrdə vətəndaşlıq tərbiyəsini formalaşdıracaq kifayət qədər mövzular var. Araşdırmalardan aydın olur ki, həmin mövzular aşağıdakılardan ibarətdir.

1. Güney Azərbaycanda milli-azadlıq hərəkatı;
2. Azərbaycanda totalitar rejimin güclənməsi dövründə;
3. Cənubi Azərbaycan 1978-1979-cu illərdə İran inqilabı dövründə;
4. Böyük sınaqlar ərəfəsində;
5. Qarabağ düyünü, onun törətdiyi faciələr;
6. Xalq hərəkatının formalaşması və yüksəlməsi;
7. Milli-demokratik hərəkatın birliyinə doğru. İlk qələbə;
8. Moskva azadlıq hərəkatının boğmağa çalışır;
9. Qanlı hadisələr ərəfəsində;
10. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpası;
11. Mədəni həyat. Özünə qayıdış. Bəşəri dəyərlərə doğru;
12. Milli və bəşəri mənəvi dəyərlərə doğru
13. Milli ideologiyanın formalaşması və s.

Mənəvi tərbiyənin tərkib hissələrindən biri olan tələbələrin vətəndaşlıq tərbiyəsi məsələsi vətəndaş cəmiyyəti, hüquqi, dünyəvi demokratik dövlət quruculuğunda mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra vətəndaş-dövlət, dövlət-vətəndaş münasibətlərinin hüquqi, mənəvi və elmi əsaslarla tənzimlənməsinin zəruriliyi aydın oldu.

Keçmiş Sovet İttifaqı tanınmış pedaqoqu V.A. Suxomlinski "Vətəndaşın doğulması" əsərində vətəndaşlıq keyfiyyətlərinin belə səciyyələndirilmişdir.

"Bir tərbiyəçi kimi sinif rəhbəri və humanitar fənlərin müəllimi kimi çalışırdım ki, yeniyetmələrdə dünyaya vətəndaşlıq baxışı inkişaf etsin, kəskinləşsin.

… Dünyanı vətəndaş gözü ilə görmək qabiliyyəti əxlaqın canı, əti və qanıdır. Mən çalışırdım ki, şagirdlər xeyir və şəri, ədaləti və ədalətsizliyi, şərəfi və şərfsizliyi başa düşsünlər, həm də ictimai bəlaya şərəfsizliyə, ədalətsizliyə qarşı barışmaz olsunlar, nifrət bəsləsinlər.

Mən cəhd edirdim ki, mənim şagirdlərim öz ətrafındakı aləmi və özlərini vətəndaş gözü ilə görsünlər. Bütün əxlaq və tərbiyəsi dünyanı vətəndaş gözü ilə görmək əsasında qurulur" (3, 211)

**Elmi nəticə.** Məqalədə ali məktəb tələbələrin də vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasının hüquqi və mənəvi bazasının müəyyənləşdirilməsidir.

**Elmi yenilik** ondan ibarətdir ki, ali məktəbdə Vətən tarixinin təlimində tələbələrdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasının imkan və yollarının şərhidir.

**Məqalənin əhəmiyyəti** ondan ibarətdir ki, materiallarda irəli sürülən elmi-nəzəri müddəalar tarixin tədrisi metodikası elmi daha da zənginləşdirəcək.

Məqaləni praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalədəki metodik sistemdən ali məktəblərin Azərbaycan tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

## ƏDƏBİYYAT

1. Aristotel. Politika. Bakı, 1997.
2. “Azərbaycan Respublikası vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı: Qanun, 1999.
3. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975.
4. Məmmədov İ.A. Azərbaycan tarixi. Bakı: Çaşıoğlu, 2007.

**В. Сафарова**

## ПУТИ И ВОЗМОЖНОСТИ ФОРМИРОВАНИЯ ГРАЖДАНСКОГО ВОСПИТАНИЯ У СТУДЕНТОВ ВЫСШИХ ЗАВЕДЕНИЙ ПРИ ОБУЧЕНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***РЕЗЮМЕ***

В статье была обоснована актуальность формирования образования гражданственности в обучении истории Азербайджана. Была выяснена суть гражданства. Определены юридические и моральные основы гражданства. Были исследованы темы возможности формирования гражданского воспитания у студентов в обучении истории Родины.

**V. Safarova**

## OPPORTUNITIES AND WAYS OF FORMING CIVIC EDUCATION FOR STUDENTS OF HIGHER EDUCATION INSTITUTIONS IN TEACHING THE HISTORY OF AZERBAIJAN

***SUMMARY***

In the article, the urgency of forming citizenship education in teaching the history of Azerbaijan was justified. The essence of citizenship was clarified. The legal and moral foundations of citizenship have been determined. The topics of the possibility of forming civic education among students in teaching the history of the Motherland were explored.

**Redaksiyaya daxil olub:** 14.10.2017